# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 109** **Bakı şəhəri, 28 fevral 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 may tarixli 237 nömrəli Qərarı ilə təsdiq edilmiş "Peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması Qaydaları"nda, 2021-ci il 12 oktyabr tarixli 306 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektron icra" informasiya sistemi haqqında Əsasnamə"də və 2021-ci il 12 oktyabr tarixli 307 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektron notariat" informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 may tarixli 237 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 970 (Cild I) ilə təsdiq edilmiş "Peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması Qaydaları"nın 3.4.1-ci yarımbəndinə "qurumlarda" sözündən sonra "(maliyyə bazarlarını tənzimləyən qanunlarda müəyyən edilən tələblər nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 306 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1175 (Cild I) ilə təsdiq edilmiş "Elektron icra" informasiya sistemi haqqında Əsasnamə"nin 11.3.11-ci yarımbəndində "bütün növ bank hesablarının qalıqları" sözləri "banklarda və digər kredit təşkilatlarında saxlancda əmlakının və hesabının mövcudluğu, habelə hesab üzrə qalıqlar" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 307 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1176 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 29 yanvar tarixli 52 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Elektron notariat" informasiya sistemi haqqında Əsasnamə"nin 12.3.16-cı yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 12.3.17-ci yarımbənd əlavə edilsin:

"12.3.17. müştəri vəfat etdikdə onun hesabları və əmanətləri, habelə bank saxlancında olan əmlakı barədə məlumatlar (icraatında olan vərəsəlik işləri üzrə – notariuslara, habelə müvafiq notariat hərəkətlərini icra edən konsulluq idarələrinə münasibətdə).".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti.- 2024.- 2 mart, № 48.- S.12.